# Hər rəsmdə bir dünya var



Sənəti də insan yaradıb. Bu məqamda onun doğulub boya-başa çatandan sonra hansı sənəti seçməsi də tale məsələsindən daha çox həyati qanunauyğunluqdur. Ancaq elə insanlar var ki, onun həyatı ilə məşğul olduğu sənəti arasında bağlılığa diqqət edəndə burada taleyin izləri daha çox görünür. Belə insanlarla tanışlıqdan sonra onu başqa bir sənətin sahibi kimi təsəvvür etmək çətin olur. Mənim qəhrəmanımın taleyi rənglər dünyasına bağlıdır. Və bu bağlılıqda alın yazısı, tale qisməti açıq-aydın görünür...

İlqar Əkbərov 1960-cı ildə ziyalı ailəsində dünyaya gəlib. Atası Seyfulla Əkbərov uzun illər prokurorluq sahəsində çalışıb. Anası Soltan xanımın cavan ikən dünyasını dəyişməsi, 9 uşağın anasız qalması artıq ailədə böyük çətinliklər yaradır. Atası Seyfulla müəllim və ailənin yaşca böyük uşaqları bu çətinlikləri dəf etməyə, azacıq da olsa, analarının yerini doldurmağa çalışırdılar. Ondan 15 yaş böyük olan qardaşı Rasim, balaca İlqarı bir an diqqətsiz buraxmır, dərsləri ilə məşğul olur, dostları ilə görüşəndə belə özü ilə aparırdı. Elə İlqar da bu rənglər dünyasına ilk addımı burdan atmağa başlayır. Qohumları, qardaşının yaxın dostu, eyni zamanda yaxın qonşuları Ağaəli İbrahimovla tez-tez görüşmələri, onunla birlikdə Səttar Bəhlulzadənin emalatxanasına getməsi, burada sənətdən, rəsmdən maraqlı söhbətləri eşitməsi, bir-birindən gözəl əsərləri yaxından görməsi, hətta Səttar Bəhlulzadənin iş prosesini belə izləməsi artıq İlqarda bu sənətə maraq, həvəs oyadır, onu aram-aram bu dünyanın bir üzvünə çevirirdi.

Hələ 5 yaşında ikən İlqarın rəsmə olan həvəsinin gündən-günə artdığını görən ailə üzvləri onu Y.Qaqarin adına pionerlər evinin rəsm dərnəyinə üzv yazdırdılar. İlqar elə ilk gündən bura böyük həvəslə gəlir, buranı dünyanın ən gözəl, ən rahat və ən maraqlı yeri sanırdı. Sənətə olan sevgisinin üstünə isə müəlliminə olan sevgisi də əlavə olunduqdan sonra artıq balaca rəssam bu sirli-sehirli aləmin daimi üzvünə çevrilir. Məsumə Ağayeva da bu istedadlı, həvəsli və bacarıqlı şagirdinin gələcəkdə rəssam olacağına əminliklə inanır və böyük həvəslə İlqara bu sirli rəngli dünyasının hər bir sirrini incəliklərinə qədər açmağa çalışırdı. 8 il Məsumə Ağayevadan dərs alan İlqarın rəssam olacağına heç kim şübhə etmirdi. Lakin 1977-ci ildə Bakıdakı H.Cavid adına 132 saylı orta məktəbi bitirəndən sonra isə o hüquqşünas olmağa, atasının yolunu davam etdirməyə qərar verir. Və sənədlərini hazırlayır. Lakin o dövrün qanunlarına uyğun olaraq hüquq fakültəsində oxumağa yalnız fəhlə, kolxozçu ailəsindən olan uşaqlar qəbul olunduğundan İlqarın sənədlərini geri qaytarırlar. Bəlkə bu da bir tale qisməti, alın yazısı idi. Axı İlqar rəssam olacaqdı...

Həmin il hərbi xidmətə yollanan İlqar orada da içindəki rənglər dünyasında yaşayır və özündən asılı olmayaraq bunu büruzə verirdi. Qısa bir müddət ərzində İlqarın rəsm çəkdiyini qulluq etdiyi hərbi hissədə hamı bilir və hərbi hissənin bütün tərtibat işlərini böyük zövqlə edirdi. Hərbi xidmətdən qayıtdıqdan sonra 1981-ci ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Bədii qrafika" bölməsi adlandırılan bu bölmə heykəltaraş İbrahim Zeynalovun təşəbbüsü və gərgin əməyi sayəsində "Bədii qrafika" bölməsi adlandırıldı və İlqar Əhmədov da bu bölmənin ilk buraxılışlarından oldu.

Tələbəlik illərində Ağaəli İbrahimov, İbrahim Zeynalov, Ziyadxan Əliyev kimi sənətdə öz dəst-xətti, öz imzası olan tanınmış rəssamlardan dərs alan İlqar Əkbərov sevib-seçdiyi sə-



nətini dərinliklərinə qədər öyrənir və müntəzəm olaraq yaradıcılıqla məşğul olur. Hələ I kurs tələbəsi ikən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi nəzdindəki "Şəfəq" bədii yaradıcılıq emalatxanasında icraçı rəssam kimi işə başlayır. Sonralar Azərbaycan xalçası və xalq tətbiqi sənəti Dövlət Muzeyində sərgi şöbəsinin müdiri, Azərbaycan Dövlət Rəssamlar Qalereyasında elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Tələbəlik illərindən professional yaradıcılıqla məşğul olan İlqar Əkbərov harda və hansı vəzifədə işləməsindən asılı olmayaraq bir an yaradıcılıqdan uzaqlaşmır, fırçasını əlindən yerə qoymur. Və bu illərdə yağlı boya, keramika və ya metal üzərində döymə, ağac üzərində döymə və s. janrlarda çoxsaylı əsərlər yaradır. Rəssamın çoxşaxəli yaradıcılığında mənzərə janrı əsas yer tutur. Təbiətin qoynunda təbiətin yaratdığı möcüzə ilə üzbəüz dayanıb onu kətan üzərinə köçürən rəssam bu janrda saysız-hesabsız gözoxşayan, qəlbi riqqətə gətirən əsərlər müəllifidir. Təbiətdən ilham alan rəssamın yaradıcılığında at rəsmləri də üstünlük təşkil edir. Mütaliəni çox sevən rəssamın tarixi mövzulara müraciət etməsi də təbiidir. Onun Praqada beynəlxalq sərgidə nümayiş olunan Xocalı faciəsinə, R.Mustafayev adına Dövlət İncəsənət Muzeyində saxlanılan 20 Yanvar faciəsinə həsr olunmuş əsərləri tarixi mövzularda ağ-qara rənglərlə işlənmiş seçilən əsərlərindəndir.

1997-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan İlqar Əkbərov 2000-2002-ci illərdə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında baş rəssam, Akademik Milli Dram Teatrında quruluş hissə müdiri vəzifəsində çalışmış, S.Rəhmanın "Yalan", A.Rəhimovun "Əsgər anası", H.Orucovun "Durnalar qayıdanda", İ.Məmmədlinin "İşıq tozu", K.Abdullanın "Elə bil qorxa-qorxa", R.Abdullayevin "Olacağa çarə yoxdur", "Medea mono" tamaşasına, "Əhli beyt" teatrında Ş.Nəzərlinin "Möcüzə" tamaşasına və bir sıra dövlət tədbirlərinə rəssam kimi quruluş vermişdir.

İlqar Əkbərov həm də 2000-ci ildə Türkiyənin İzmir şəhərində yaradılmış, incəsənətin bütün sahələrindən - rəssamların, şair və yazıçıların, musiqiçilərin, aktyorların, dünya mədəniyyətinin heç bir cərəyana qoşulmadan, sülhün təbliği, dilindən, dinindən, irqindən asılı olmadan birliyə nail olmağı qarşıya məqsəd qoyan Uluslararası Aktivist Sənətçilər Birliyinin üzvüdür. Vətənini sevən, ona qəlbən bağlı olan, onun hər bir qarışını əziz tutan, əsərlərində bu məhəbbəti qürurla göstərən rəssam 2011-ci ildə Avropa Nəşr Mətbu Evinin təsis etdiyi - "Ən yaxşı tədqiqatçı rəssam" nominasiyası üzrə



qızıl medal, 2015-ci ildə Azərbaycan Rəssamlar İttifaqının "Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində fəaliyyətinə" görə diplom, "Dədə Qorqud" Milli Fondunun "vətənpərvər rəssam" nominasiyası üzrə "Dədə Qorqud" heykəli ilə təltif olunmuşdur. Rəssamın ana yurdumuzun füsunkar təbiətini əks etdirən mənzərələri, insanı dünənə, keçmişinə qaytaran tarixi mövzulara həsr etdiyi əsərləri Moskva, Pekin, Kərkük, Brüssel, İzmir, Paris və bir sıra şəhərlərdə keçirilən beynəlxalq sərgilərdə nümayiş olunmuş, müxtəlif ölkələrdə muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır. Bu əsərlər onun rəssamlıq arzusunun böyük bir istedaddan qaynaqlandığını sübut edir. Çünki bu böyük dünyada özünü tanıtmaq, təsdiqləmək sadə iş deyil. Çəkdikləri isə öz mövzusuna, janrına, formasına, probleme yanaşma tərzinə görə bir-birindən fərqlənə bilər. Lakin onları birləşdirən bir ortaq nöqtə var. Bu, həmin əsərlərin sonunda yazılan imzadır: İlqar Əkbərov.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**